Müstəqil ictimai-siyasi, publisistik qəzet № 05 (930) 31 yanvar 2019-cu il Qiyməti 1 manat Qəzet 1999-cu ilin oktyabrından çıxır

# TARİXİN YADDAŞI - ZAMANIN ÖZÜL DAŞI




## HƏQİQƏTİN GÖZÜ İLƏ BAXSAQ...

...Hər gün işə gələndə yolum N.Nərimanovun heykəlinin yanından düşür.

Hər dəfə onun zaman-zaman repressiya olunması qəlbimdə acı təəssürat doğurur.

**Bəs kimə sığınım, mənim öndərim?**
**Kim olsun həyatın dolaylarında?**
**Bəs kimin ruhundan mənim əllərim**
**Yapışsın taleyin olaylarında?**

...Mən başa düşmürəm; tarixi şəxsiyyətlərə qarşı repressiv münasibət düzgün sayıla bilməz. Onda hər gələn nəsil özündən əvvəlki nəslə qarşı ikrah hissilə böyüyər. Onda gərək Cavanşirə nifrət edək, xilafətlə müqavilə bağlayıb. Onda gərək Babəki inkar edək. İslama qarşı döyüşüb. Heç gərək Koroğlunu yada salmayaq. Vuruşduğu kimlər olub. Onsuz da M.C.Bağırovu yamanlayırıq. Günahları çox olub, sözüm yoxdur. İndi də N.Nərimanov. Bu insanın faciəsi daha böyükdür. Onun beynəlxalq arenada — Genuya konfransında apardığı mübarizə danıla bilərmi? Yaxud Qarabağın Azərbaycanın tərkibində qalması uğrunda sədaqətlə, prinsipial döyüşləri niyə yaddan çıxır? Tarixi şəxsiyyətlər də insanlardır, onların da səhvləri ola bilər. Nərimanov xalqı qarşısındakı xidmətlərinə görə daha çox hörmətə layiqdir, nəinki səhvlərinə görə bu gün lənətlənməyə... Yaşadığı zamandan bu günə qədər o, demək olar ki, hər 15-20 ildən bir repressiya olunub. Çünki Azərbaycanın bugünkü faciələrinin kökündə, mayasında keçmişə qeyri-obyektiv münasibətin durduğu mənə məlumdur. Goreşən xislətilə tarixə qarşı təftişçi münasibətin ağrı-acılarını dünya xalqlarının bir çoxu yaşayıb. Ancaq həqiqəti dərk etdikdən sonra, yəni keçmişə qarşı təftişçi münasibətdən əl çəkdikdən sonra mənəvi birliyə nail ola biliblər. Məlumdur ki, bolşeviklər Rusiyada hakimiyyətə gəldikdən sonra V.İ.Leninin bilavasitə məsləhətilə I Pyotrun heykəlini uçurmadılar. Minin və Pojarskinin xatirəsinə hörməti qorudular. Çünki bu şəxsiyyətlərin hər biri Rusiyanın tarixi ilə bilavasitə bağlı tarixi simalardır. Əgər inkar motivi ilə qərəzli münasibətlə yanaşsam bir çox tarixi şəxsiyyətlər haqqında danışa bilmərəm.

...Atam həmişə deyər ki, quşun bircə tələbi var: məni öz daş-tərəzimlə çək. Məni özünün daş-tərəzinlə çəkə bilməzsən.

İndi sakit iş otağımda öz aləmimə qapılıb bu duyğuları qələmə aldığım anlarda düşünürəm: hər kəsi öz zamanına görə, tarixi şəraitə görə nə üçün qiymətləndirə bilmirik. Və "təftişçilər" haqqında bir vaxt yazdığım şeirdən bir bənd burda yerinə düşər yada salsam:

**Bədxahlıq, namərdlik tarix yaratmaz,**
**Doğru-düz adını vaxt özü yazar...**
**Goreşən xisləti səni yarıtmaz,**
**Bir vaxt məzarını bu tarix qazar.**

...Atam danışır ki, Şirvan babam atın üstündə lovğa-lovğa oturan oğlu Abdullaya deyib ki, yəhərdə düz otur, düşərsən, bir də minə bilməzsən.

...Mənsub olduğu xalqın, yaşadığı dövrün məsuliyyətini, ağırlığını çiynində daşımayan adamlar lovğa-lovğa da danışa bilərlər, keçmişə daş da ata bilərlər. Amma heç kimsə unutmasın ki, bir vaxt bu daşlar qayıdıb onun öz başına düşəcəkdir.

...Bir gün gördüm ki, bu heykəlin düz gözünün qabağında bir bina tikilir. Düşündüm ki, heykəl çox hündürdür, eyb etməz. Bir gün də gördüm bu bina qara bulud kimi heykəlin üstünü alıb. İlk ağlıma gələn bu oldu ki, biz nə üçün bu qədər qəddarıq:

**Memar qardaş, sənin tikdiyin bina**
**Bulud topasıdır günəş önündə.**
**Bil ki, içindəki qəzəbə, kinə**
**Bil heykəl yapmısan qiblə yönündə.**

**Bəs niyə bilmədin qaraçuxadır**
**Heykəl ruhumuzun səbri üstündə.**
**Tikdiyin saray yox, qaratikandır,**
**Əkmisən babanın qəbri üstündə.**

**Babanın ruhuna daş atmısan sən,**
**Bu daşla tarixə yara vurmusan!..**
**Heç elə bilmə ki, baş atmısan sən,**
**Kif atmış dünyana qala qurmusan.**

**Bəs niyə görmədin necə alışır,**
**Özü öz içində necə inləyir?**
**Bil ki, daş dilində səssiz danışır,**
**Ruhunun səsini özü dinləyir.**

**Bil ki, bu heykələ atdığın daşı**
**Tarix öz başına vuracaq bir gün.**
**Bil ki, qabağına çəkdiyin aşın**
**Zəhəri qarşına çıxacaq bir gün.**

Sovet hakimiyyətinin qələbəsindən sonra Azərbaycanın bütün ərazisi faktiki olaraq işğal olundu. Bundan sonra bolşevik ideologiyasının qarşısında mühüm problem dururdu. Bu, insanların mənəvi işğalı problemi idi. İnsanlar mənən azadlıqdan məhrum edilməli idi. Əks-təqdirdə kommunist ideologiyası yaşaya bilməzdi. Mənə elə gəlir ki, tarixi repressiyanın əsas səbəbi elə bu idi. Qulluq halqasına düşən, ancaq mənəvi azadlığını qoruyan adamlar ictimai quruluş üçün təhlükəli hesab olunurdu. Doğrudur, Nəriman Nərimanov "Oğluma məktublar"da köləliyə qarşı barışmaz olduğunu, insanı azad görmək istəyini xüsusi ilhamla bildirirdi. Həqiqət naminə qeyd etmək lazımdır ki, bu N.Nərimanovun tarixi səhvi idi. Yox ki, insan insan tərəfindən istismar olunmalıdır. Yox ki, insanın köləliyi cəmiyyətdə məqbul sayılmalıdır. Əlbəttə, Nərimanov böyük insan kimi, humanist bir vətəndaş kimi köləliyə, nadanlığa qarşı ömür boyu mübarizə aparmışdı. Bu, onun həyat idealı idi. Ancaq kommunizm, kommunist ideologiyası - insanı mənəvi azadlıqdan məhrum edən ideologiya onu azad etməyə qadir deyildi. Tarixi hadisələr göstərdi ki, Nərimanovun özü də həmin ideologiyanın qurbanı oldu. Və onun tarixi səhvlərini də bu gün bağışlamayanlar az deyil. Halbuki onun elə böyük xidmətləri, xüsusilə millətinin yolunda, elə böyük xidmətləri var ki, həmin səhvlər kölgədə qalmalıdır.

Doğrusu, prinsiplər nisbidir, tarix keçdikcə öz yerini dəyişir. Nərimanova münasibət də zaman keçdikcə dəyişir, bu ikili münasibət də hələ ki davam edir. Bu ikili münasibət fonunda bir həqiqət bütün zaman boyu kölgəsiz qalacaqdır. Nərimanov mənsub olduğu xalqın azadlığı uğrunda mübarizənin qurbanı olmuşdur.

...Nəriman Nərimanovun heykəlinin qarşısında ucaldılmış binanı, bəlkə də, bütün taleyini mənsub olduğu xalqa həsr etmiş bir insanın neçənci dəfə repressiyası adlandırmaq olar...

*Əli Rza Xələfli*

*("Sədaqət heykəli" (2000) publisistik povestindən)*